


# XX əsrin faciəsi - Xocalı soyqırımı













**Biz qayıtdıq, Vətən!**

# "Əsl xocalılı olduğumu ilk dəfə o torpağa qədəm qoyduğum anda hiss etdim..."

## Gözünü dünyaya məcburi köçkün kimi açan və gənc ömrünə yurd həsrətini, atasızlığı, maddi-mənəvi çətinlikləri sığdıran Ayxan Sadıqovun hekayəsi



**O, Xocalıda doğulmasa da, özünü tanıyandan kim soruşsa, "xocalılıyam" deyib. Baxmayaraq ki, onilliklər ərzində bu yurdun necə bir yer olduğunu bilməyib. Torpağında gəzməyib, suyundan içməyib, havası ilə nəfəs almayıb, dağlarını, düzlərini, meşələrini görməyib. Xocalını sadəcə o torpaqdan didərgin salınan ata-anasının xatirələrindən, həsrətli göz yaşlarından, ümidqarışıq dualarından tanıyıb, sevib...**

Uşaq yaşlarından etibarən 1992-ci ilin fevralında şəhid olan Xocalının yasını doğmaları ilə birgə tutub, ağlayıb, bu ədalətsizliyi dünyaya çatdırmağa and içib...

Beləcə... Xocalı ruhu zərrə-zərrə qəlbinə, iliyinə hopan, ürəyində bir gün mütləq ata-baba yurduna dönəcəyinin ümid, inam hissi ilə böyüyən Ayxan ilk dəfə 2024-cü ilin noyabrında doğma vətəni ilə tanış olub, 27 illik ömründə bir dəfə görməsə belə vurğununa çevrildiyi torpağını göz yaşları içərisində salamlayıb...

### "Doğma diyarımla görüşüm belə olmamalı idi"

"Bilirsiniz, əsl xocalılı olduğumu ilk dəfə o torpağa qədəm qoyan anda bütün varlığımla hiss etdim... Bu elə bir duyğudur ki... Təsəvvür edin ki, biz xocalılılar illərboyu özlərini harasa aid hiss edə bilməyiblər, yəni aid olduqları torpaqdan uzaqda yaşamağa məcbur olublar. Mən isə heç o torpaqda doğulmamışam. Əcdadlarımın, nənə-babamın, ata-anamın böyüyüb boya-başa çatdığı Xocalıya həsrətli bir şəkildə yaşamışam. Ancaq bir gün mütləq o yurda qayıdacağımızın inamı içərisində olmuşam. Düşünürəm ki, təkcə məndə yox, bütün xocalılılarda ölməyən bu ümid və inam hissi indi bizi Xocalıya qovuşdurub".

"Biz qayıtdıq, Vətən!" rubrikasının budəfəki qonağı "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının üzvü, xaricdə təhsil almış xocalılı gənc Ayxan Sadıqovdur. Ayxan danışır ki, 2024-cü ilin noyabrında Xocalını ziyarətə gedib, öz evlərinə baş çəkib. Bir zamanlar ailəsinin xoşbəxt yaşadığı bu evin kandarındaca bütün ötüb-keçən həyatı gözlərinin qarşısında canlanıb, sevincqarışıq kədər hisslərinə bürünüb:

"Doğma diyarımla ilk görüşüm belə olmamalı idi... Xocalıda hara baxırdımsa, ürəyim ağrıyırdı... Bir zamanlar bu şəhərdəki evlərdə xoşbəxt yaşamış əksər sakinlər indi bu dünyada yoxdular, ya 1992-ci ilin qan-qadalı fevralında, ya da sonradan vətən həsrəti ilə bu həyatla vidalaşıblar... Buna görə də qayıdış sevincimizin üzərində kədərin də öz izi var... Düşünürəm ki, bəlkə də, Xocalıya, evimizə atamla birgə getsəydim, daha ürəkli, toxtaq olardım... Amma tale elə bir yazı yazıb ki... Tək təsəllim atamın ruhunun da mənimlə bir yerdə Xocalıda olması idi..."

### Ağrılı illər, sınaq, ümid

1997-ci il martın 4-də Naftalanda Goran sanatoriyasında Xocalıdan olan ailədə dünyaya göz açan Ayxan Sadıqovun atası Şirin Sadıqov 44 yaşında olarkən qəza nəticəsində dünyasını dəyişir. O zaman cəmi 13 yaşı olan Ayxan, bacısı Ləman və qardaşı Alı evdar qadın olan anası Hüsniyyə Hacıyevanın himayəsində böyüyürlər.

- Naftalanda Goran sanatoriyasında yaşayırdıq. Maddi çətinliklər, ana-atamın çəkdikləri əziyyətlər heç zaman yadımdan çıxmır. Xocalı soyqırımı zamanı ata tərəfimdən otuz nəfər şəhid olub. Nənəm, bibim, bibimin oğlu, yoldaşı, atamın əmisi qızları... Buna görə də atam həmişə kədər içərisində idi, üzü heç zaman gülmürdü... Özümü dərk edəndən fevral ayının bizim üçün qara ay olduğunu görmüşəm. Biz bu ayda nə ad günü, nə toy, nə də hansısa şadlıq keçirmişik. Yəni hər il fevralın 1-dən axırına qədər bizim üçün yas kimi olub. Xocalı soyqırımı yaşanan zaman dünyaya gəlməmiş olsam belə o faciənin travması sonradan mənim də həyatımda sağalmaz yaralar açıb, kədər yükü ilə böyümüşəm. Buna görə də lap kiçik yaşlarımdan həmişə özümə deyirdim ki, böyüyüb bütün dünyaya Xocalı faciəsi haqqında danışacam.

Ona görə də çalışırdım dərslərimi daha yaxşı oxuyum, ingilis dilini öyrənim. Bilirdim ki, bunun sayəsində dünyaya çıxa bilərəm və Xocalı həqiqətlərini, yaşanan faciəni hər kəsə çatdıra bilərəm.

Beşinci sinfə qədər Naftalanda yerləşən Xocalı 1 saylı tam orta məktəbində oxumuşam. Həmin məktəbdə səhər növbəsində naftalanlılar, günortadan sonra isə xocalılılar oxuyurdu. 2011-ci ildə isə Goranboya köçdük və orada tam orta məktəbdə təhsilimi davam etdirib məzun oldum. 2015-ci ildə Azərbaycan Texniki Universitetinin nəqliyyat mühəndisliyi üzrə bakalavr təhsili aldım.

Tələbəlik illərində də çox maddi çətinliklər çəkdim. Atam "KamAz" sürücüsü idi. 2010-cu ildə Bakıya səfər



edən zaman yemək alıb yolu piyada keçən zaman avtomobil vurması nəticəsində həyatını itirmişdi. Anam da evdar qadın idi, sadəcə pensiya alırdı. Tələbəlik illərimdə yataqxana puluma da anam pensiyası ilə kömək edirdi. Digər xərclərimi özüm birtəhər ödəyirdim. Hətta elə olurdu ki, pulum olmadığı üçün bayramlarda, tətillərdə rayonda yaşayan ailəmin yanına gedə bilmirdim. Ancaq yaşadığım maddi çətinliklər məni ruhdan salmadı, 2019-cu ildə universiteti fərqlənmə diplomu ilə bitirdim. Qarşıdakı hədəfim isə Avropada təhsilimi davam etdirmək idi. Ancaq ailəmin bunu qarşılamağa imkanı olmadığına görə bu, mənim üçün sadəcə əlçatmaz bir arzu idi.

### "Ömür boyu Leyla xanım Əliyevaya minnətdar olacağam"

- 2019-cu ilin aprel ayında UEFA-da könülü vəzifəsində çalışırdım. Həmin vaxt UEFA Avropa Liqasının final oyunu Bakıda keçirilirdi. İngilis dilini bir az bildiyim üçün könüllülərin rəhbəri məndən xahiş etdi ki, "Çelsi" və "Arsenal" klublarının futbolçuları bulvara gəzməyə gedəcəklər, vaxtın olsa onları sən müşayiət edərsən. Bu təklifə razı oldum və heç özüm də bilmədim ki, bu qərar həyatımı dəyişəcək. Futbolçularla



Dənizkənarı Milli Parkı gəzəndə Prezident İlham Əliyevi, Mehriban xanım Əliyevanı və qızları Leyla xanımı və Arzu xanımı gördüm. Bu, Allahın qisməti idi. Orada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva ilə danışmaq şansım oldu. Atam rəhmətə getdikdən sonra ailəmlə birgə neçə illər yaşadığım əziyyətləri, yataqxanada imkansız şəraitdə dörd il qalaraq çətinliklə oxumağımı, amma heç vaxt mübarizəmdən dönməməyimi bir neçə cümlə ilə Leyla xanıma danışdım. Avropada təhsil almaq istədiyimi, amma buna ailəmin gücü olmadığını dedim və həyatdakı ən böyük arzumun gerçəkləşdirilməsində mənə kömək etməsini Leyla xanımdan xahiş etdim.

Çox sağ olsun Leyla xanım, mənim bu arzumu gerçəyə çevirdi, 2019-cu ilin oktyabrında onun dəstəyi ilə təhsil almaq üçün Avropaya yollandım.

Avropada təhsil aldığım müddətdə Leyla xanım Əliyeva tərəfindən mənə hərtərəfli dəstək göstərildi. Maddi yardım, universitetin ödənişi, yataqxana xərci hamısı təmin edildi. Mənə dəstək olaraq həyatımı tamamilə dəyişdiyi üçün ömür boyu Leyla xanım Əliyevaya minnətdar olacağam.

Əvvəlcə Danimarkada 1 il 6 ay ingilis dili kursu keçib sertifikat aldım. 2021-ci ildə Kopenhagen Universitetində bir il oxudum, sonra həmin universitetin proqramı çərçivəsində Polşada Vitula Universitetində 6 ay oxuyub semestri bitirəndən sonra, yenidən Danimarkaya qayıdıb təhsilimi davam etdirdim. 2023-cü ilin iyul ayında magistraturanı fərqlənmə ilə bitirib ikili diplom aldım. Cəmi bir ay sonra - avqustun 15-də isə "CITI US BANK Europe PLC"-nin Polşa filialında işə başladım. Hazırda da burada işləyirəm. Polşada bu sahədə özümü daha da inkişaf etdirdikdən sonra Norveçə köçmək planlarım var. Bank sahəsindəki işimi orada davam etdirəcəm. Bütün bunlar mənim üçün bir təcrübədir. Burada qazandığım təcrübənin hamısını gələcəkdə qayıdıb ölkəm üçün dəyərləndirmək istəyirəm.

### Xocalıda körpə səsi

- Avropaya gəldiyim zamandan "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının rəsmi üzvlərindən biriyəm. Almaniyada, Avstriyada keçirilən tədbirlərdə Xocalı ilə bağlı ingilis dilində çıxışlar etmişəm. Bu barədə həmin ölkələrin mediasında xəbərlər dərc olunub. Hər zaman çalışmışam insanlara Xocalı, Qarabağ haqqında daha çox məlumat verim, Azərbaycanın həqiqətlərini çatdırım. Biz o qədər sülhməramlı ölkə, xalqıq ki, heç zaman müharibə, gənc insanların ölməsini istəməmişik. Torpaqlarımızın işğal altında olduğu 30 il müddətində də çalışmışıq ki, ərazilərimiz sülh yolu ilə qaytarılsın. Əcnəbilərə danışıram ki, o torpaqlarda əsrlər boyu azərbaycanlılar yaşayıb. Görürəm ki, bununla bağlı yanlış bilgisi olanlar da az deyil. Buna görə də bu missiyamı ömrümün axırına qədər davam etdirəcəm və daha çox insana həqiqətləri çatdıracam.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu Qarabağı azad edib və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Xocalını bizə qaytardığı üçün Qalib liderimiz İlham Əliyevə, qəhrəman oğullarımıza minnətdaram, şəhidlərimizin ruhu qarşısında baş əyirəm.

Biz hamımız vətənimizə qayıtmaq istəyirik. Xocalılılar məcburi köçkün kimi Azərbaycanın müxtəlif bölgələrində yaşayıblar. Onlar hər zaman yaşadıqları bölgələrdə özlərini qonaq kimi hiss ediblər, bir gün Xocalıya qayıdacaqları ümidlərini heç zaman itirməyiblər. Xocalılılar torpaqlarına bağlı insanlardır. Mən özüm heç orada doğulmamışam, böyüməmişəm, amma Xocalının quru torpağına qurban olaram. Soyköküm o torpaqdandır, atam o torpaqda doğulub, böyüyüb, yaşayıb... Əzizlərimizin qanı ilə suvarılan Xocalı müqəddəs ünvanımız, and yerimizdir...

İndi Xocalıya Böyük qayıdış həyata keçirilir, xocalılılar bir-bir doğma yurdlarına qovuşurlar. Bu günlərdə eşitdim ki, Xocalıda yeni körpə dünyaya gəlib...

Bax, bütün bunlar onilliklərdir qaysaq bağlamayan yaralarımızın üzərinə məlhəm çəkir. Mən də Xocalıya qayıdıb atamın ocağını yenidən yandıracam...

Bu, dünyaya gözünü məcburi köçkün kimi açan və gənc ömrünə vətənsizliyi, atasızlığı, maddi-mənəvi çətinlikləri sığdıran bir gəncin mübarizələrdən keçən həyat yolu idi...

Nə xoşbəxtlikdir ki, sınaqlardan adlayaraq uğur zirvələrini dolaşan bu uzun və incə yol, nəhayət, dönüb-dolaşıb Ayxan Sadıqovun bu dünyada özünü ən xoşbəxt hiss etdiyi, atasının hənirini aldığı ünvana - Xocalıya çıxır...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*